# Qalib xalqın sərkərdəsi

**Qarabağ Qələbəsi ilə Prezident İlham Əliyev adını tarixə qızıl hərflərlə yazdı. Xalqının Zəfər salnaməsini yaradanlardan oldu. Yoxsulluq içində çabalayan bir dövləti iqtisadi-siyasi-hərbi cəhətdən qüdrətləndirib dünyada tanıtdırdı. Xalqın inamını, gücünü səfərbər edərək zəfərdən-zəfərə apara bildi. Prezident İlham Əliyev dünya tarixində analoqu olmayan möhtəşəm bir qələbənin müəllifi, 30 il düşmən işğalı altında olan torpaqları azad edən Sərkərdə, 50 milyonluq bir xalqın vahid lideri oldu.**

Mübahisəsiz qəbul etmək olar ki, bütün xalqlar öz qəhrəmanlarını sevirlər. Cənab İlham Əliyev 44 günlük Zəfər müharibəsində qurduğu ordu ilə düşmən üzərində qələbə çalaraq yalnız 30 il işğal altında olan torpaqları yox, xalqın ruhunu, qəhrəmanlıq hissini, qurub-yaratmaq əzmini, eyni zamnda qürurunu geri qaytardı. Qəhrəman xalqın qəhrəman liderinə çevrildi. Azərbaycan Prezidenti İlham Əliyevin əməlləri, gördüyü işlər onu xalqının sevimlisi etdi.

Tikməsən, qurmasan, yaratmasan, iz qoymasan torpaq yurd, vətən olmur. Prezident İlham Əliyev vətənsevər insandır. 30 illik bir zamanda düşmən təkcə torpaqlarımızı işğal etməmişdi. Torpaqlarımızda həyatı öldürmüşdülər. Təbiətə, ətraf mühitə, canlı aləmə ziyan vurub hər şeyi məhv etmişdilər. Bizə aid nə vardısa izini silməyə çalışmışdılar. Qələbədən sonra Qarabağa ilk səfəri zamanı İlham Əliyev "Biz bu torpaqlara həyat verəcəyik, bu torpaqları cənnətə döndərəcəyik", - dedi. Həyat nurdur, işıqdır, dirilikdir. İlham Əliyev Qarabağı və Şərqi Zəngəzuru azad etməklə o torpaqlara yenidən həyat verdi.

Zirvəyə sürünə-sürünə qalxmazlar. İlham Əliyevin ordusu da Qarabağa zirvələrdən keçib getmişdi. Yüyürərək, düşmənin sinəsindən keçərək getmişdi. Ali Baş Komandan ordusunun iz saldığı o zirvələrdən Şuşaya yol çəkdirdi.

Şərqi Zəngəzura, Qarabağa işıq çəkildi. Qısa bir zamanda Füzuli Beynəlxalq Hava Limanı tikilib istifadəyə verildi. Torpaqlarımız işğaldan azad olunmaqla həsrətin də sonu gəldi. Böyük qayıdışa start verildi. Yurda dönüş, qələbəmizin rəmzi, əsrin möcüzəsi Ağalıdan başladı. Tarixi mədəniyyət abidələrimizin, məscidlərimizin bərpasına start verildi. Qarabağ əsl tikinti meydançasına döndü. Laçında yeni hava limanının tikintisinə başlanıldı. Zəngilan Beynəlxalq Hava Limanı qısa bir zamanda istifadəyə verildi. Zəngilanda Türkiyə-Azərbaycan müştərək müəssisəsi "Dost Aqro" fəaliyyətə başlayaraq "Made in Azerbaijan" brendi ilə məhsul istehsalına start verdi.

Qələbə bizə yeni iqtisadi rayonlar verdi. İllərdir işğal altında olmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafına öz töhfələrini verəcəyi şübhəsizdir. Hazırda həmin ərazilərə yollar çəkilir. Ölkəmiz həm də bərpaolunan enerjinin ünvanına çevrilməkdədir. İşğaldan azad olunmuş rayonların coğrafi mövqeyi, təbii şəraiti buna daha çox imkan verdiyi üçün Laçın və Kəlbəcər rayonlarında işə start verilib. Laçında ermənilərin dağıtdığı 14 kiçikhəcmli elektrik stansiyası bərpa olunmaqla yanaşı, 120 meqavat elektrik hasil edən 28 elektrik stansiyasının tikilməsi planlaşdırılır. Laçın şəhər 2 saylı məktəbin yenidənqurma və bərpası üçün dövlət başçısı vəsait ayırıb. Eləcə də Zabux kəndində məktəb tikintisinə start verilib.

Kəlbəcər rayonu faydalı qazıntıları ilə məşhurdur. Necə deyərlər, rayonun altı da, üstü də sərvətdir. Bu bölgədə turizmin inkişafı üçün də hər cür şərait var. Hazırda Prezident İlham Əliyevin nəzarəti altında həmin ərazilərdə sürətlə quruculuq və tikinti işləri gedir.

Bu iki yeni iqtisadi rayonun yaranmasında strateji məqsəd isə Zəngəzur dəhlizi vasitəsilə qərblə şərq, şimalla cənub arasındakı yükdaşımaların intensivliyinin artırılması, beynəlxalq ticarət əməliyyatlarının genişləndirilməsi, nəqliyyat və logistika sektorunun əhəmiyyətli səviyyədə inkişaf etdirilməsi durur. Sözsüz ki, reallaşmaqda olan proqram ölkəmizin rəqabət qabiliyyətini yüksəltməklə yanaşı, iqtisadi qüdrətini də dəfələrlə artıracaqdır.

Bu gün Qarabağın bütün əraziləri kimi, Kəlbəcər rayonu da geniş tikinti meydançasına çevrilib. Bu rayonda da infrastrukturun sürətlə yeniləşməsi prosesi gedir. Məşhur "İstisu" sanatoriyası bərpa edilir. Məktəb tikilir, yollar salınır... İşğaldan azad edilmiş ərazilərdə quruculuq və abadlıq işləri çərçivəsində Kəlbəcər rayonunda yeni 4,4 MVt gücündə "Kəlbəcər-1" Kiçik Su-Elektrik Stansiyası tikilib istifadəyə verilib. Xatırlatmaq yerinə düşər ki, bu günlərdə işğaldan azad edilən ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı dövlət başçısının tapşırığına uyğun olaraq ümumi gücü 20 meqavat olan "Güləbird", "Suqovuşan-1", "Suqovuşan-2" Kiçik Su-Elektrik stansiyaları da tikilib istifadəyə verilib. İndiyədək bu stansiyalarda 30 milyon kilovatsaat elektrik enerjisi istehsal olunub.

Qarabağın gözü Ağdamda müasir standartlara uyğun şəhərsalma işinə başlanılıb. "Yeni şəhər"in təməlqoyma mərasimində dövlət başçısı özü iştirak edərək xeyir-duasını verib.

Qələbəmizin, qüdrətimizin rəmzi olan Şuşa şəhərində başqa bir büsat var. Şuşanın ermənilər tərəfindən dağıdılmış hər bir küçəsində, hər bir məhəlləsində abadlıq, quruculuq, təmir-bərpa işləri aparılır. Tarixi abidələrimizə yenidən həyat verilir, infrastruktur bərpa olunur. Şəhərin elektrik enerjisi, su ilə fasiləsiz təminatı tam təchiz olunub. Qəhrəman Şuşa indi beynəlxalq konfransların, musiqi festivallarının, ictimai-siyasi tədbirlərin mərkəzinə çevrilib. Qələbəmizin rəmzi Şuşa Türk Dövlətlərinin Mədəniyyət Paytaxtıdır. Gözəl Şuşamız dövlətlərarası diplomatik danışıqlara da evsahibliyi edir.

İllərdir güllə səsinə, top nəriltisinə diskinib oyanan Qarabağ və Şərqi Zəngəzur indi sabahlarını musiqi səsinə açır. Dağıdılıb viran qoyulmuş yurdumuza nəfəs verilib həyata qaytarılır. 30 il ermənilərin "əcəl zəngi" çaldığı torpaqlarımızda indi məktəb zəngi çalınır. Erməni tanklarının sinəsində şırım açdığı torpaqlarımızda taxıl əkilir. Bu büsata göydə ulduzlaşan şəhid ruhu, yerdə qürur hissi keçirən Azərbaycan xalqı sevinir. Qazandığımız uğurlara görə Zəfərimizin müəllifi cənab İlham Əliyevə minnətdarlıq hissi ilə yaşa Prezidentim, yaşa deyirik!

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2022.- 24 dekabr.- S.19.